# Sözün işığını tutub gedən şair



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Hissimi, duyğumu vermişəm sözə,**
**Söz mənim qəlbmin parlaq aynası.**
**Səyyar xəyalımı uçurur göyə,**
**Yaxşı söz bir həzin ana laylası.**
**Söz Dədəm Qorqudun ulu and yeri,**
**Bizə öyüd verib dünyadan getdi.**
**Sözdən qala qurdu dahi Füzuli,**
**Söz ilə ilahi məqama yetdi.**
**Sözün işığını tutub gedərlər**
**Sözə qiymət verər söz anlayanlar.**
**Sözün qarşısında səcdə edərlər**
**Sözün məqamını düz anlayanlar.**

Bu misraların müəllifi Vəliyulla Novruzdur, Cəlilabadın bir kəndində ədəbiyyat müəllimi işləyir, o rayonun ən sayən, oxunduqdan sonra da rahat buraxmayan hisslər çağlamalıdı. Vəliyulla müəllim bunları yetərincə anlayır və şeirlərində də buna can atır.

Hər hansı bir şairi başqa bir şairə oxşatmaq, o şairin təkrarı saymaq yanlış yoldur. Vəliyulla müəllimi də mən heç kimə bənzəməyən bir şair hesab edirəm. Amma onun şeirlərində gözəl şairimiz Musa Yaqubla səsləşən məqamlar var. Bu səsləşməni mən Musa Yaqub kimi Vəliyulla müəllimin də təbiətə, onun gözəlliklərinə sonsuz sevgidə axtarırım. Musa Yaquba həsr etdiyi şeirdə deyir ki:

**Salam, dədə Palıd, salam Göyrüşüm,**
**Sizdəki vüqara heyran qalmışam.**
**Ay Gökəm, Vələsim, Qızılağacım,**
**Nədən tonqal kimi durub yanırsız?**
**Siz mənim ümidim, dərdim, əlacım,**
**İndi yarpaq-yarpaq alovlanırsız.**
**Ürəkdən danışın, ürəkdən gülün,**
**Qəlbimin həmdəmi Nilim, Qovunum.**
**Məni özünüzə yaxın dost bilin,**
**Dərdimi sizinlə bölüm, ovunum.**

**Bu gecə gecənin içindən keçdim,**
**Ay da göy üzündən nur ələyirdi.**
**Qəmli nəğmələrlə bizi tərk edən**
**Durnalar uzağa köç eləyirdi.**
**Bu gecə gecənin içindən keçdim,**
**Tapdım axtardığım o sirli yeri.**
**Zülmətdə dirilik suyundan içdim,**
**Dedim cavanlığım qayıdar geri.**
**Bu gecə gecənin içindən keçdim,**
**Axırdı dupduru gümüşü bir çay.**
**Göylərdən xəlvətcə dənizə enib,**
**Qırçın ləpələrdə çimişirdi ay.**

Vəliyulla Novruz həyatın, gerçəkliyin, yaşadığı mühitin təsirlərini özündə, gündəlik yaşayış tərzində əks etdirən şeirləri ilə də diqqəti cəlb edir. Həyat çox mürəkkəbdir, bir başın içində min baş gərəkdir ki, onu dərk edəsən, cəmiyyətin, mühitin, münasibətdə olduğun insanların nə düşündüklərini fəhm edəsən. "Mənim bu həyatda kimim var axı, Yanıb zaman-zaman dönmüşəm közə"- bu narazılıq nədən doğur? Düşünürsən ki, bu şeirin sonu elə ah-vayla bitəcək. Amma yox! Şeirin sonrakı sın, həmişə səmimidir. Bu səmimiyyət görüntü deyil,həqiqətdir. "Göründüyün kimi ol, olduğun kimi görün"- məşhur kəlamı onun şeirlərində hətta üslubi bir məziyyətə çevrilir.

**Yenə də ağ yağış yağır,**
**Boz buludlar gör nə deyir?**
**Çölümü isladan yağış**
**İçimi isladan deyil.**

Yaz yağışı belə insanın içindəki dərdləri islada bilməz

**Tənhalıqdan yorulub**
**Asılıram gümannan.**
**Saatımın əqrəbi**
**Geri qalıb zamannan.**

Tənhalığın yaratdığı kədərli ovqatdı bu.

**Çölüm könül oxşayır,**
**Başdan-başa dərd içim.**
**Bu didərgin həyatda,**
**Haçanacan dərd içim?**

vadlı müəllimlərindən biridir. Böyük söz ustadlarının əsərlərini sevə-sevə tədris edir. Zəngin bir kitabxanası var, Azərbaycan və dünya ədəbiyyatından oxumadığı əsər qalmayıb. Deyir ki, ədəbiyyat nəinki mənim sənətim, ədəbiyyat mənim varlığımdır. Vəliyulla müəllim həm də şairdir, iki şeir kitabının müəllifidir və kənddə yaşasa da, şeirləri "Azərbaycan" və "Ulduz" jurnallarında dərc edilir.Onun şeirləri ilə tanış oldum və poeziyamızda yeni, özünəməxsus bir SƏSin varlığından xəbər tutdum.

Hal-hazırda rayonlarda, kəndlərdə də ədəbi həyat, şeirə, sənətə sevgi şölələnməkdədi. Təbii ki, şər yazana ŞAİR demək olmaz. Amma Vəliyulla müəllim doğrudan da şairdir.

Bugünkü Azərbaycan şeiri bir-birinə bənzəməyən müxtəlif şeir cərəyanlarının, üslubların müxtəlifliyini özündə əks etdirir. Klassik poeziyaya meyl edənlər qəzəl yazırlar, hətta elələri var Divan bağlayır. Qoy olsun! "Köhnə havalarda" da təzə notlar səsləndirmək olar. Xalq şeiri üslubuna meyl edənlər, qoşmaya, gəraylıya, təcnisə "aşiq" olanlar da az deyil. Təki ortada ŞEİR olsun, Ələsgərin, Qurbaninin, Xəstə Qasımın, Dədə Şəmşirin, Hüseyn Arifin, Hüseyn Kürdoğlunun, Məmməd Aslanın , Məstan Günərin qoşmaları, gəraylıları kimi oxucuya bədii zövq versin. Modernist ya postmodernist şeirin də bizim poeziyada peyda olması heç də pis əlamət deyil. Dünya şeir mədəniyyətindən qıraqda qalmaq olmaz. Təki ortada ŞEİR olsun. Vəliyulla müəllim bizim ənənəvi dediyimiz hecalı şeirdə qələm sınayır. Yaxşı bilir ki, hər hansı şeirdən-vəznindən, formasından asılı olmayaraq - məqsədi poetik fikir ifadə eləməkdi. Şeir fikirlə hissin, ağılla ürəyin vəhdətindən yaranır. Şeir adi sözlərin nizamla düzülüşü demək deyil, adi sözlərin qeyri-adi bir mənzərə yaratmasıdır və o mənzərədə insan qəlbinin lirikası əks olunmalıdır. Şeirdə səni özünə cəlb elə-

Vəliyullanın şeirlərində təbiətlə ünsiyyət çox davamlıdır və əslində, kənddə yaşayan bir şair təbiəti, onun gözəlliklərini, hətta təzadlarını özündə yaşatmalıdır. Payız fəslinin bir az gecikməyi təbiətdə adi haldır, amma şair üçün bu hadisə adi deyil, onun düşüncəsində fərqli bir münasibətin yaranmasıdır. Payız gecikir, adi haldır, amma şair qəlbindən saralmış yarpaqların, qurumuş xəzəllərin həsrəti çiçəkləyir.

**Bu ormanlar, meşələr**
**Sənsiz nəyimə gərək?**
**Qurumuş xəzəlləri**
**Qovub aparır külək.**
**Sən yoxsan, qəlbimin də**
**Titrəyir sarı simi.**
**Üzülürəm budaqdan**
**Sonuncu yarpaq kimi.**

Vəliyullanın təbiət şeirlərində peyzaj təəssüratı yaradan nümunələr də var (bahara, payıza həsr etdiyi şeirlər), təbiətin ayrı-ayrı obrazlarına metaforik yanaşmada. Birinci qisim şeirlərdə lövhələr, rəssam duyğusundan yaranan mənzərələr canlandırılır. "Ağaclar gör necə puçurlayıbdı, Qönçənin dodağı uçuqlayıbdı .Açır yaxasını nərgiz, bənövşə, Güllərin xoş ətri yayılır döşə. Çiçəkdən-çiçəyə qonur arılar, Çölə xalısını sərir ilk bahar" ("Bahar duyğuları"). "Bu bulud havadan asılı qalıbdı,Təzə gəlin kimi yaslı qalıbdı" ("Payız lövhəsi"). Amma "Sizə güvəndiyim dağlar"da Dağ məcazi məna daşıyır: "Sizə güvəndiyim dağlar, siz məni sındırdınız, sinəmə dağ çəkdiniz, od vurub yandırdınız". Təbii ki, adi dağlardan söhbət getmir. İnsanla təbiətin harmoniyası-təbiətdə insanı, insanda təbiəti görmək, bu sintezdə üçüncü bir məna aramaq onun bir çox şeirlərində xüsusilə nəzərə çarpır. "Bu gecəgecənin içindən keçdim"-bu şeirdə insan çanki təbiətin bir parçasına çevrilir. Bu "çevrilmədə" insan mənən saflaşır, təbiətin bir parçası olduğunu dərk edir.




bəndlərindən nikbinlik çalarları cücərir: "Ömrümü, günümü əksəm torpağa, Boyat arzularım göyərəcəkdir". Bədbinliyi nikbinliyin, şikayəti sevinc çalarının əvəz etdiyi məqamlar onu göstərir ki, həyat gözəldir, təbii ki, bu gözəlliyi duymaq, sevmək lazım Ağlamaq, sızlamaq ğəzən yalançı vərdişə də dönür:

**Millətin bir azarı var,**
**Azardan çox bezarı var.**
**Hərənin öz bazarı var,**
**Pulu olan da ağlayır.**
**Öz evində rahat yatan,**
**Varlığını pula satan,**
**Çörəyinə haram qatan,**
**Rüşvət alan da ağlayır.**
**Gözlərimin yaşın sildim,**
**Öz-özümə xeyli güldüm.**
**Doğrusu, mən indii bildim,**
**Hamı yalandan ağlayır.**

Vəliyulla Novruzun şeirlərinə xas olan bir xüsusiyyəti mütləq nəzərə çarpdırmalıyam- o, nədən yazırsa-yaz-

Bu da küskünlük, taledən narazılıq.

Üzümü bu anda Vəliyulla müəllimə tutub deyirəm: Sizin şeirlərinizdə kədərlə sevincin (nikbin əhval-ruhiyyənin) "çəkisini" müəyyənləşdirəndə birincisi çox ağır gəlir. Qoy olsun! Amma şeirlərinizdəki KƏDƏR daha çox bir fərdin, subyektin taleyiylə bağlıdır. Kədərin daha tutumlu, daha önəmli ərazisini görmək lazımdır. "Bu didərgin həyatda, Haçanacan dərd içim?"-bu, təkcə sizin dərdinizdir, ümumun, qövmün, cəmiyyətin bəlalarından da söz açmaq lazımdır. "Dünya öz işindədir, Qurub mizantərəzi. Əyrini əyri çəkir düzlə yoxdur qərəzi" deyirsiniz, onda dünyanı qınamaq da doğru səslənmir. Dünya "min illərdi yerində"- insanlardır dünyanı çaxnaşdıran, müharibələrə rəvac verən.

Vəliyulla müəllim! Sizin şeirlərinizdəki ağrı-acıları mən də duyuram. Bu dərdlərin, ağrı-acıların kökünə, mahiyyətinə də varmaq lazımdır. Bir də ki, bütün dərdlər bir yana, dünya gözəlliklərlə, gözəl insanlarla doludur. Nəsihət vermək ağlımdan keçmir (müəllimə nəsihət vermək olmaz!), dünyanın, gözəlliyin, gözəl insanların işığı da şeirinizdən əskik olmasın!

Şeirlərinizin bədiiyyatına gəldikdə-Elə əvvəllər və indii necə yazırsınız, o yolu, o üslubu dəyişməyin. Amma axtarışlarınızı davam etdirin, maraqlı və orijinal təşbehlər, metaforalar tapın. Sevgi şeirləriniz daza baxımlıdır. Həmin o səmimiyyət hissi sevgi şeirlərinizdə daha boldur. Siz payız lirikasının şairisiniz.

**Daha göz yaşları tökməyə dəyməz,**
**Töksən də bu yaşa otlar göyərməz.**

Sizə uğurlar arzulayıram. Yazımın əvvəlində misal gətirdiyim "Söz" şeirinə -oradakı mərama həmişə sadiq qalın!